# Müstəqilliyin səsi:




## Ana dilimizin hüquqi zəfəri

***Əsrlərin süzgəcindən keçən Azərbaycan dili milli kimliyimizin, mənəvi bütövlüyümüzün və tarixi yaddaşımızın ifadəsidir. Hər bir xalqın varlığını təsdiqləyən, onu başqalarından fərqləndirən şübhəsiz ki, onun ana dilidir.***

Dilimiz xalqın düşüncə tərzini, yaşam fəlsəfəsini, milli ruhunu və mənəviyyatını yaşadır. Məhz buna görə də ana dilinin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması hər bir xalq üçün müqəddəs taleyüklü məsələdir. Azərbaycan xalqı bu tarixi məsuliyyəti daim dərk edib. Vətən yolunda savaşlarda olduğu kimi, ana dilimizin yaşadılması uğrunda mübarizədə də xalqımız öz övladlarının iradəsinə və müdrikliyinə arxalanıb. Zaman-zaman dilin saflığının keşiyində duran, onu həm də siyasi platformalarda müdafiə edən böyük şəxsiyyətlər tarixdə layiqli yeri tutublar. Lakin elə liderlər var ki, onların bu sahədə gördüyü işlər, atdığı addımlar bir epoxanın, bəzən də bir millətin taleyində dönüş nöqtəsi olub.

**(davamı 9-cu səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Azərbaycan dili XVI əsrdən etibarən dövlət səviyyəsində işlədilməyə başlasa da, sonrakı dövrlərdə müxtəlif tarixi və siyasi səbəblərlə zaman-zaman təhdid altına düşüb. Lakin XX əsrin ikinci yarısında, dilimizin dirçəliş dövrü başlandı. Türk xalqının böyük oğlu, Ulu Öndər Heydər Əliyevin ana dilinə olan münasibəti təkcə şəxsi duyğuların ifadəsi deyildi, o, ana dilimizi milli dövlətçiliyin rəmzi kimi dəyərləndirirdi. Onun uzaqgörən və qətiyyətli siyasəti nəticəsində Azərbaycan dili milli şüurun və düşüncənin əsas amilinə çevrildi. Dədə Qorqudun qopuzundan, Füzulinin qəzəllərindən, Sabirin şeirlərindən süzülüb gələn dilimiz siyasi səhnəyə çıxdı, yenidən dövlətin ideoloji dayağına çevrildi. 1978-ci ildə qəbul edilən Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" maddəsinin daxil edilməsi isə bu siyasətin zirvəsi oldu. O dövrün siyasi atmosferində bu cür təşəbbüs cəsarət, həm də siyasi iradənin göstəricisi idi. Çünki sovet məkanında milli dillərin imkanları məhdudlaşdırılır, rus dili bütün sahələrə hakim kəsilirdi. Belə bir şəraitdə Azərbaycan dilinin müdafiəsi və konstitusiya səviyyəsində təsbit edilməsi xalqın milli ruhuna verilən yüksək dəyər, bütöv bir xalqın kimliyinin, varlığının və gələcəyinin təminatı idi. Ulu Öndər bu addımı ilə göstərdi ki, millətin dili qorunduqca onun mədəniyyəti, yaddaşı və dövlətçiliyi də daim yaşayacaq. O, ana dilimizi nəinki sovet məkanında qorudu, həm də gələcək müstəqil Azərbaycanın ideoloji təməl daşını qoydu. Bu gün müstəqil Azərbaycanda ana dilinin suverenliyi Ulu Öndər Heydər Əliyev siyasətinin bəhrəsidir.

Ulu Öndər Heydər Əliyev ana dilinə yalnız siyasi qərarları ilə deyil, həm də şəxsi nümunəsi ilə sahib çıxdı. Onun ana dilinə diqqəti təkcə qanunların mətnində deyil, gündəlik fəaliyyətində, çıxışlarında, ictimai davranışında öz əksini tapırdı. Rəsmi tədbirlər Azərbaycan dilində dərin məzmunlu çıxışları, ədəbi-bədii irsimizi yaradan sənətkarlarla daim ünsiyyətdə olması, ana dilində yazıb-yaradan yazıçı və şairlərə mənəvi dəstəyi Ulu Öndərin doğma dilinə hörmətinin canlı ifadəsi idi. Onun təşəbbüsü və dəstəyi ilə Azərbaycan məktəblərində tədrisin keyfiyyəti artırıldı, ali təhsil müəssisələrinin inkişafı təmin olundu, ədəbiyyat və mətbuat sahələrində Azərbaycan dilinin nüfuzu daha da möhkəmləndirildi.

Qeyd edək ki, ana dilimizin təbliği sahəsində o dövrdə Azərbaycan Yazıçılar İttifaqı və ona bağlı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti milli ruhun daşıyıcısına çevrildi. Bu nəşrlər ədəbi-bədii zövqü formalaşdırmaqla, həm də ana dilinin gözəlliyini, ifadə imkanlarını nümayiş etdirən tribuna idi. Böyük yazıçılarımız əsərlərini məhz Azərbaycan dilində qələmə alır, xalqın mənəviyyatına bu dildə nüfuz edirdilər.

Ədəbiyyatla yanaşı, elmi sahədə də dilə verilən dəyər göz önündə idi. Azərbaycan dilinin tarixinin, qrammatik quruluşunun, fonetik və leksik imkanlarının sistemli şəkildə araşdırılması istiqamətində mühüm işlər görülürdü. Xüsusilə çoxcildlik "Müasir Azərbaycan dili" silsiləsi təkcə tədris vəsaiti deyildi - bu, həm də bir xalqın dilinə göstərilən elmi-intellektual ehtiramın bariz nümunəsi idi. Həmin dərsliklərin ali məktəblər üçün hazırlanmış variantları Azərbaycan Dövlət Mükafatına layiq görüldü, alimlərin əməyi dövlət səviyyəsində tanındı, bu isə bir daha göstərdi ki, ana dilinə göstərilən ehtiram mənəvi yüksəlişin əsas dayaqlarındandır.

Müstəqillik illərində isə bu siyasət yeni mərhələyə qədəm qoydu. 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dili rəsmi dövlət dili kimi təsbit olundu. Bu, sadəcə bir hüquqi müddəa deyildi, yüzilliklər boyu xalqın qəlbində yaşatdığı milli iradənin rəsmi şəkildə tanınması idi. Məhz bu iradənin nəticəsi olaraq 2001-ci ildə latın qrafikalı əlifbaya keçid gerçəkləşdi. Bu mühüm addım həm də xalqın tarixi yaddaşına qayıdış, öz kökünə dönmək idi. Elə həmin ildən etibarən 1 avqust ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunmağa başladı.

Dil siyasəti yalnız ideoloji təməllərlə məhdudlaşmadı, hüquqi çərçivəyə salındı. 2002-ci il 30 sentyabr tarixində qəbul olunan "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun Azərbaycan dilinin hüquqi statusunu daha da möhkəmləndirdi. Bu sənəd əslində, bir millətin dilinin gələcəyini təmin edən, onu cəmiyyətin bütün sahələrində tətbiq olunmasını tənzimləyən strateji yol xəritəsi idi.

Ulu Öndər deyirdi: "Dil, dil, bir də dil... Bizim gənclərə deyirəm ki, rus dilini də, ingilis, fransız dilini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan." Bu fikirlər təkcə çağırış deyil, bir millətin kimliyinin, ruhunun, varlığının formuludur. Dil danışıq vasitəsi, xalqın düşüncə tərzi, milli yaddaşı, əxlaqının aynası, vətənpərvərliyinin mayası, poeziyasının nəfəsidir. Bu baxımdan Azərbaycan dilinə münasibət yalnız dilə olan sevgi ilə ölçülmür, bu münasibət eyni zamanda xalqın öz kimliyinə, mənəviyyatına və tarixi yaddaşına münasibətidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə dil siyasəti daha da dərinləşib, yeni müasir mərhələyə qədəm qoyub. 2018-ci ildə imzalanan "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman bu istiqamətdə atılmış strateji addımlardandır. Bu sənəd yalnız dövlət dilinin normativ istifadəsini deyil, eyni zamanda onun mədəni, ictimai və informasiya məkanında qorunmasını və inkişafını təmin edən hüquqi bazanı gücləndirdi. Bütün bu addımlar fonunda bu gün Azərbaycan dili özünü dünya dilləri arasında layiqli şəkildə təsdiqləyib. Dünyada 5 minə yaxın dil mövcuddur, lakin onlardan yalnız təqribən 200-ü rəsmi dövlət dili statusuna malikdir.

Bu gün 50 milyondan çox insan Azərbaycan türkcəsində danışır. Çindən Avropaya qədər uzanan geniş coğrafiyada bu dil türk dilləri ailəsinin bir üzvü kimi yaşayır, inkişaf edir, zənginləşir.

Beləliklə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan dili gündəlik ünsiyyət vasitəsi, həm də milli ideologiyanın, mənəvi dirçəlişin və dövlətçiliyin simvoludur. Ana dilimiz bizim danışdığımız, yazdığımız və düşündüyümüz dildir. O, həm keçmişimizin səsi, həm bu günümüzün nəfəsi, həm də sabahımızın zəmanətidir.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**

Respublika .- 2025.- 1 avqust (№ 158).- S.1;9.